# Böyük Zəfərin astanasında...

## (Əli Rza Xələfliyə təbrik-məktub)

Salam, Əli Rza müəllim!

*Xələflimizdən sonra biz Üzü Qarabağa,*
*Yağılardan qoymarıq iz Üzü Qarabağa,*
*Xələflidən də keçən o Qurtuluş Yolunda,*
*Dəstəklər verirsiniz siz Üzü Qarabağa!*
*Hər sözdə də deyirsiz siz: "Üzü Qarabağa!"*

Mən artıq 3 ildir ki, Sizi daha yaxından və daha yaxşı tanıyıram və çox sevinirəm ki, nə yaxşı ki, tanıyıram. Sizin yazıçılıq fəaliyyətiniz, dinamik iş rejiminiz məni həmişə heyrətə qərq edib. Siz həmişə mənim üçün ilham mənbəyi olmusunuz. Sizin şeirləriniz məni və bütün vətənsevərlərimizi qələbəyə səsləyən haray olub. Sizin şeirləriniz mənim üçün türkçülüyün marşlarına çevrilib. Son günlərdə Sizin "Üzü Qarabağa" adlı şeiriniz dilimdən düşməyib. Çünki, elə bil bu şeirdən ilhamlanıb biz də Üzü Qarabağa gedirik və getməkdəyik.



"Kredo" qəzetində-universitetində (mən onu Əli Rza Xələfli Universiteti adlandırardım) 1 ildir ki, tələbə olmağımla Sizi daha da yaxından tanımaq imkanını əldə etmişəm. Bu universitetdə tanış olduğum yeni, necə deyərlər, təzə-tər əsərlər məni valeh edib və həmişə belə demişəm: "Belə yazılar "Kredo"ya yaraşır". Sizin kitabxananızı da görmüşəm. Hətta, Sizin icazənizlə oradan kitablar da götürmüşəm. Birini şərh də etmişəm. Bir sözlə, Siz hərtərəfli söz Liderisiniz! Sizin yazılarınız bir ədəbiyyat nəslinin ilham mənbəyidir.

Bu günlərdə, bu Böyük Zəfərin astanasında olduğumuz günlərdə mən həmişə həsrətində olduğumuz Qarabağımıza daha da yaxınlaşmışam. Bunun sevinc hissini yaşaya bilmişəm və buna görə çox sevincliyəm. Son saylarda "Kredo"da Sizin sevincdən uçmağa qanadınızın olmadığı daha da yüksələn qələbə əzmli, qələbə nəfəsli yazılarınızdan bəllidir. Bu, məni çox sevindirir.

Cəbrayıl şəhərinin işğaldan azad edilməsi münasibətilə mən Sizə zəng etmiş və Sizinlə söhbət etmişdim. O zaman sevincinizin həddi-hüdudu yox idi. Həmin vaxt günün axşamçağı idi. O qədər sevincli idiniz ki, elə bil, bu zəngimə Xələfli kəndində, dünyaya göz açdığınız öz ata ocağınızda cavab verirdiniz. Bu sevincli anlarınız məni o qədər əfsunlamışdı ki, dəstəyi asmaq istəmədim. Lakin, bu, lazım idi.

Həmin andan Azərbaycanımızın mənfur düşmən tapdağında olan bütün torpaqları ilə bərabər rəşadətli ordumuz tərəfindən dünyaya göz açdığınız Xələfli kəndinin və Xocavənd rayonunun Muğanlı kəndinin *(hərbi xidmət zamanı gənc yaşlarında vəfat etmiş, şəkillərindən tanıdığım, üzünü görmədiyim dayım Mübariz Saleh oğlu Həsənovun məzarı oradadır, məqsədim həmin dayımın məzarını ziyarət edib oradan bir ovuc torpaq götürüb Xocavənd rayonunun Muğanlı kəndi işğal olunan gün vəfat etmiş ana babam Həsənov Saleh Sadıq oğlunun, eləcə də vətənimizin ərazi bütövlüyü, polis orqanlarında çalışdığı müddətdə isə ömrünü haqq, ədalət və qanunlarımızın aliliyi yolunda fəda etmiş, eyni həsrətlə ana babamın yanında, atasının yanında Ağcabədi rayonunun Kürdlər kənd qəbirstanlığında dəfn olunmuş dayım Mütalib Həsənovun ruhu rahat olsun deyə onların məzarının üzərinə səpməkdən ibarətdir)* azad olunmasını gözlədim. Hər dəfə Sizin hədiyyə etdiyiniz Azərbaycan Respublikasının xəritəsi qarşısında dayanıb həm Xocavənd rayonunun Muğanlı kəndinə, həm də Cəbrayıl rayonunun Xələfli kəndinə baxırdım. Fikirləşirdim ki, görəsən Şanlı Ordumuz həmin yerlərə yaxındırmı?

Axırıncı dəfə isə Cəbrayıl rayonunun Qumlaq kəndi işğaldan azad olunandan sonra xəritədə Qumlaq və Xələfliyə diqqət etdim. Orada fikrim məni çaşdırdı. Görəsən, Xələfli azad olunubmu? O vaxtdan bu ana qədər fikrim məni rahat buraxmırdı. Soruşmağa isə utanırdım. Bəyəm Ali Baş Komandanımızın rəhbərliyi altında Rəşadətli Ordumuz tərəfindən can, qan bahasına Azərbaycanımızın düşmən tapdağından azad edilən hər qarışı Xələfli, Muğanlı deyilmi?, yenə də... Xələfli elə bil bir qız idi, nazlı-qəmzəli, özünü, yanağını göstərməkdən həyalanan Azərbaycan gözəli. Ona görə də, bir az da səbrlə gözləyəsi olduq. Lakin...

O gözlənilən gün gəldi, çatdı! 23 oktyabr 2020-ci il, Xələfli kəndinin mənfur düşmən tapdağından qurtuluş günü! Xələflili Azərbaycanın qurtuluşu günü! Ürəklərin bir olması, sevinməsi, gülməsi günü gəldi çatdı! Xudafərində və Zəngilanda Azərbaycan bayrağının sancılmasından sonra gəldi çatdı! O taylı-bu taylı olmayan bir Azərbaycanın birləşməsi Zəfərindən sonra gəldi çatdı! Və həmin gün Azərbaycanın Qurtuluş Savaşının, Böyük Qələbəsinin astanasında, Zəfərinin astanasında gəldi çatdı Xələfli! O günü düz 30 il gözləyən, səbr edən yurddaşların səbr kasasının daşdığı anda gəldi çatdı Xələfli! Onu həsrətlə uzun illər gözləyən yurddaşların həsrətinə son qoymaq üçün gəlib çatdı. Özü də yolunu gözləyən balasının həsrətinə son qoymaq üçün dayanmadan, birnəfəsə qaçan Ana kimi gəldi Xələfli!.

Həmin an "Xələfli" sözünü diktor deyərkən qulaqlarıma inana bilmədim. Xələfli kəndi işğaldan azad edilmişdi! Gözlədiyimiz gün gəlib çatmışdı! Bu, mənim üçün əladan da əla, sözlə ifadə olunmayacaq dərəcədə möhtəşəm bir xəbər idi! Bu sözü yazan hər yazıçının cümləsinin sonu nida olmalı idi, özü də atəşli, odlu-alovlu bir nida işarəsi, necə ki, Ali Baş Komandanımız demişdi: "Qarabağ Azərbaycandır və nida işarəsi"!

O sözü təkcə mən, təkcə Siz eşitmirdiniz, o sözü Qurbanidən üzü bəri bütün ziyalılar eşidirdi. O sözü dağlar, daşlar bir-birinə deyirdi. O sözü Araz cənubuna çatdırırdı. O sözü dinləyən hər bir insanın qulağı dərman tapırdı, ruhu dincəlirdi. Və ən əsası, o sözü eşidənlərdən biri də Zal baba idi! Zal baba! Ruhu rahatlığını tapan Zal baba! Əziz oğlu və Əziz Zal baba! O sözü eşidərkən o, az qala yerindən durub Sizi bağrına basmaq, öpmək istəyirdi kim bilir... Yerindən durub əvvəlcə, Allaha şükür edib sonra ruhunu Xələfliyə aparmaq istəyirdi kim bilir... O, yerindən durub bütün Xələflidəki ruhlarını çağırmaq istəyirdi kim bilir... Bəlkə də, bundan başqa heç nə istəməzdi. Çünki, onun üçün ən gözəl xəbər elə bu idi... Allah ona rəhmət etsin! Yeri nurla dolsun, ruhu şad olub, dünyanın axırına qədər də ruhu şad olaraq qalsın! Amin!

Hörmətli Əli Rza müəllim! Mən Səməd Behrəngi barədə xatirə toplusu toplayıb "Kredo" qəzetində dərc etdirərkən Siz bir xatirə yada salmışdınız. Bu, bir gənclik xatirəsi idi. Səməd Behrənginin ölüm günü Siz hadisə yerində ürəyi çırpınan və matəm saxlayan kəndliləri görürdünüz. Onlar bu günə qədər matəmi saxlamışdılar. İndi isə Səməd Behrəngi də dirilib, Dirili Qurbani kimi. O da daha matəm saxlamır. Xüsusilə də, Xələfli ilə birgə Xudafərinə görə, Ağbənd qəsəbəsinə görə...

Bu gözəl Qurtuluş Günü münasibətilə Sizi və xalqımızı səmimi qəlbdən, necə deyərlər, sidq-i-ürəkdən təbrik edirəm! Sizə belə ağır dərdlərin bir də rast gəlməməsini arzulayıram! Elə ancaq belə gözəl xəbərlər eşidəsiniz! Qulaqlarınız belə gözəl xəbərlərlə dərman tapsın...

Mən Sizə ikinci dəfə bu gözəl bayram üçün zəng edəndə, yəqin ki, Sizin telefonunuzda zənglər bir-birinə qarışmışdı. Bu dəfə artıq Siz dərdsiz-qəmsiz danışırdınız. Belə deyim, Xələfli erməni vandallarından, Sizin ürəyiniz isə dünyanın ən böyük dərdindən- həsrətdən azad olmuşdu... Siz bundan sonra könül quşunu Xələfliyə uçuracaqsınız və bundan sonra ancaq həsrət körpüsünə yox, Qələbə körpüsünə şeirlər yazacaqsınız...

Və bir sözü də burada vurğulayıb təbrik məktubumu bitirirəm. "Əli Rza Xələfli-65" adlı kitabda dostlarınızdan biri Sizinlə əlaqəli belə demişdir: "Əli Rza Xələfli Xudafərin körpüsünü gəzib, orada ürəkdən "oxqay" deyəcək!" İndi həmin vaxt gəlib, çatıb, Əli Rza müəllim! Yəqin ki, bundan sonra, Xələflinin işğal gününü qeyd etməyəcəksiniz, ona bir acı xatirə kimi baxacaqsınız. Bundan sonra Siz Xələflinin qurtuluş gününü-23 oktyabrı qeyd edəcəksiniz! Onilliklər Zəfərlərlə başladı, Səfər bizdən, Zəfər Allahdandır! Allaha Şükür! Ulu yaradan Ali Baş Komandanımızı, Müzəffər ordumuzu, əsgər, çavuş, gizir və zabitlərimizi qorusun, müqəddəs torpaqlarımız uğrunda canını fəda etmiş şəhidlərimizə rəhmət eləsin, yaralılarımıza şəfa versin. Amin, Amin, min Amin!

**Sizin kimi ürəyi çırpınmasa da, Sizinlə birlikdə ürəyi çırpınan**

*Sevindik NƏSİBOĞLU,*
*23.10.2020*